**Z.A.Şəkərəliyeva**

**UOT:338.1; JEL: E10.**

# Azərbaycan iqtisadiyyatının inkişaf meyiləri və diversifikasiyalaşdırılması

***Xülasə***

*Məqalədə Azərbaycan iqtisadiyyatının inkişaf meyiləri və diversifikasiyalaşdırılması məsələlərinə baxılır. Ölkədə iqtisadiyyatın inkişafı ilə bağlı bu sahədə həyata keçirilən tədbirlər tədqiq edilir. İqtisadiyyatın və qeyri-neft sektorunun inkişafı ilə bağlı fikirlər irəli sürülür.*

***Açar sözlər:*** *iqtisadiyyat, diversifikasiya, qeyri-neft sektoru*

## Giriş

Müstəqillik əldə etdikdən sonra Azərbaycan iqtisadiyyatı bir çox ciddi problemlərlə üzləşmiş və iqtisadiyyatın müxtəlif sektorları iflic halına qədər proseslər yaşamışdır. 1994-cü ildən başlayaraq, Azərbaycanda milli karbohidrogen ehtiyatlarından səmərəli istifadənin təşkili istiqamətində, yəni neft strategiyasının reallaşdırılması sahəsində aparılan tarixi işlər ölkə iqtisadiyyatının dirçəldilməsi tədbirlərinin genişləndirilməsinə yeni stimullar vermişdir. Artıq 2000-ci ilə qədər olan dövrdə Azərbaycan iqtisadiyatının müxtəlif sektorlarında islahatlar başlamış, qanunvericilik bazası formalaşdırılmış, bir çox istiqamətlər üzrə strateji iqtisadi hədəflər müəyyənləşdirilmiş və milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması məqsədilə ilk addımlar atılmışdır.

## Ölkədə həyata keçirilən islahatlar

Ölkənin iqtisadi prioritetlərinin milli iqtisadi maraqlar əsasında formalaşdırılması prosesləri 2000-ci illərin əvvəllərindən başlayaraq, xeyli intensivləşmişdir. Azərbaycan bu dövrdə özünün iqtisadi inkişaf modelini formalaşdırmış, iri regional layihələrin təşəbbüskarı və həlledici tərəfdaşı kimi çıxış etməyə başlamışdır. Ölkəyə neft gəlirlərinin axını ilə əlaqədar olaraq, milli iqtisadiyyatın infrastrukturunun yenilənməsi, ayrı-ayrı sahələrin modernizasiyası prosesləri intensivləşdirilmiş, neft sektorunun inkişafı onu ölkə iqtisadiyyatının lokomotivinə çevirmiş və bu imkandan bəhrələnməklə, Azərbaycanda iqtisadi siyasətin daha iri miqyaslı hədəfləri özündə birləşdirən modeli işlənib hazırlanmış, ölkənin xarici ticarət siyasəti əhəmiyyətli səviyyədə güclənmişdir. Azərbaycanda son 10 ildə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi üçün geniş geniş həcmli tədbirlər görülmüş, dövlətin bu sahədə iqtisadi siyasəti gücləndirilmiş, çoxlu sayda Prezident Fərman və Sərəncamları verilmiş, Dövlət Proqramları, Strategiyalar və Konsepsiyalar qəbul edilərək reallaşdırılmışdır. İqtisadi islahatlara sistemli yanaşmanı təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" təsdiq edilib. Habelə həmin istiqamətlər müvafiq olaraq inkişaf planlarının işlənməsini təmin etmək üçün ardıcıl olaraq milli iqtisadiyyat və iqtisadiyyatın on bir əsas sektoru üzrə strateji yol xəritələrinin layihələri hazırlanmışdır (1).

Qlobal çağrışlara cavab verərək investisiyaların cəlbi, azad rəqabət mühiti,bazara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycanın dünya iqtisadiyyatında mövqeyi gücləndiriləcək və respublikamız yüksək gəlirli ölkələr qrupuna daxil olacaqdır (2; 3). Bütün bu kimi tədbirlərin bir çoxu hazırda icra proseslərini yaşayır. Qeyri-neft sektorunun inkişaf etdirilməsi üzrə bir qrup dövlət dəstəyi mexanizmləri işlənib hazırlanmış və reallaşdırılmaqdadır. Xüsusilə, regionların inkişafı, kənd təsərrüfatı məhsullarının istehsalçılarının dəstəklənməsi məqsədilə iri infrastruktur layihələri həyata keçirilmiş, lizinq yolu ilə texniki təminat təşkil edilmiş, gübrələrlə təchizat sistemi yaradılmış, anbarlar

©Z.A.Şəkərəliyeva i.f.d.,.dos. Azərbaycan Dövlət İqtisad Universiteti "Ticarət və gömrük işinin təşkili kafedrası"
© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

istifadəyə verilmiş, yollar çəkilmiş, modern müəssisələr istismara verilmiş, biznes layihələri üzrə güzəştli kreditlər ayrılmış və s. stimullaşdırıcı tədbirlər görülmüşdür. Bütün bunlara baxmayaraq, qeyri-neft sektoru hələlik davamlı və yüksək artım tempi toplaya bilməmiş, ölkənin neftdən asılılığının əhəmiyyətli azaldılmasını təmin etməmiş və rəqabət qabiliyyətliliyi baxımından mövcud problemləri həll edə bilməmişdir. Azərbaycanın beynəlxalq miqyaslı ən mühüm və strateji vəzifələrindən biri də xarici ticarət dövriyyəsinin diversifikasiyalaşdırılmasıdır. Ölkə ixracının quruluşunda rəqabətqabiliyyətli ixrac məhsullarının çeşidinin məhdudluğu ciddi problem olaraq qalmaqdadır. Bir çox ənənəvi sənaye sahələrinin ixrac potensialından (kimya, neft və neftkimya maşınqayırması, metallurgiya və s.) zəif istifadə davam edilir. Güclü ixrac potensialına və bu sahədə beynəlxalq müqayisəli üstünlük komponentlərinə malik olan bir sıra kənd təsərrüfatı və aqrosektor məhsullarının ixrac potensialının cüzi bir hissəsi dövriyyədədir (təzə tərəvəz və meyvələr, üzüm şərabı, bitki yağları və s). Ölkənin qeyri-neft sektorunun ixrac potensialının ümumi vəziyyəti ilə onun mövcud potensialı arasında xeyli fərq qalmaqdadır. Bu sahənin inkişafının sürətləndirilməsi, ixracın tənzimlənməsi, stimullaşdırılması tədbirlərinin, dövlət dəstəyi mexanizmlərinin mövcudluğuna baxmayaraq, bu işlərin səmərəliliyi aşağıdır.

**Milli iqtisadiyyatın diversifikasiyası**

Qeyri-neft sektorunun ixrac potensialının artırılması üçün ilk növbədə milli iqtisadiyyatın özünün diversifikasiyalaşdırılması və modernləşdirilməsi prosesləri başa çatdırılmalı, innovasiyalaşdırılması sürətləndirilməlidir. Bundan əlavə, qeyri-neft sektorunun ölkənin təbii resursları və iqtisadi amilləri nəzərə alınmaqla, dərindən tədqiq edilməsi, onun potensialının obyektiv qiymətləndirilməsi zərurəti diqqəti cəlb edir. 1990-cı illərin ortalarından balayaraq Azərbaycan iqtisadiyyatının inkişaf prosesləri sabitləşmiş, milli iqtisadi prioritetlər əsasən müəyyənləşdirilmiş, ölkənin neft sektoru ilə yanaşı qeyri-neft sektoru sahələrinin inkişafı üçün islahatlar aparılmış, özəlləşdirmə prosesləri gücləndirilmiş, sənaye və emal potensialından daha səmərəli istifadəyə başlanılmışdır. Azərbaycanın regionlarında torpaq sahələrinin ev və fermer təsərrüfatlarına verilməsi prosesləri əsasən başa çatdırılmış, regionlarda zəruri infrastruktur şəbəkəsi yaradılmış, sahibkarlığın inkişafına dövlət dəstəyi gücləndirilmişdir. Ölkə Prezidenti tərəfindən 25 oktyabr 2007-ci ildə "Sahibkarlıq fəaliyyəti subyektlərinin bir pəncərə prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" Sərəncam imzalanmışdır. Sərəncamla sahibkarlığın inkişafına yeni töhfələr verilməklə yanaşı, müasir şəraitdə daha effektivli və səmərəli dövlət tənzimlənməsi mexanizmlərinin reallaşdırılması prosesləri intensivləşdirilmişdir.

Azərbaycan iqtisadiyyatının inkişafında ən mühüm meyllərdən biri regionların iqtisadi fəallığının artırılması, onların dünya iqtisadi proseslərinə inteqrasiyasının təşkili və ixrac potensialının formalaşdırılmasıdır. Bu sahədə sabit və davamlı dövlət siyasətinin yürüdülməsi, diqqəti cəlb edir. Son 10 ildə xüsusilə geniş miqyaslı tədbirlər həyata keçirilmiş, dövlət proqramları reallaşdırılmışdır. Bu sahədə ilk dövlət proqramı çərçivəsində regionlarda infrastruktur obyektlərinin geniş şəbəkəsinin qurulmasına başlanılmışdır (2;3). İkinci dövlət proqramında isə regionların ənənəvi iqtisadiyyat sahələrinin dirçəldilməsi və müasir, modern müəssisələr şəbəkəsinin formalaşdırıması prioritetləri daha çox diqqət məkəzində olmuşdur. Ölkə regionlarının iqtisadi inkişaf prioritetlərini özündə cəmləşdirən növbəti dövlət proqramında mühüm prioritetlərə regionların sənaye potensialının güclndirilməsi, iri fermer təsərrüfatlarının yaradılması, rəqabətqabiliyyətli məhsulların istehsalının təşkili kimi tədbirlər aiddirlər. Müvafiq proqramlarının əsas mahiyyəti regionun güclü iqtisadi subyektə çevrilməsi aqrar və sənaye sahələrinin müasir subyektləri kimi çıxış etməsi, ölkə iqtisadiyyatının rəqabətqabiliyyətinin artırılması və ixrac potensialının gücləndirilməsi, sosial-iqtisadi inkişafın yeni keyfiyyət mərhələsinə qaldırılması ilə bilavasitə bağlıdır.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Azərbaycan iqtisadiyyatının digər mühüm meyillərindən biri də turizm sektorunun inkişafı ilə bağlıdır. Son illərdə ölkədə yüzlərlə turizm obyektləri, müasir otellər, istirahət mərkəzləri, turizm-rekreasiya kompleksləri tikilib istismara verilmişdir. Bakıda və regionlarda (Quba, Qusar, Qəbələ, Şəki, Şəmkir, Gəncə və s.) tanınmış brend otellər istifadəyə verilmiş, idman turizm kompleksləri yaradılmışdır. Turizmin inkişafı üzrə qanunvericilik bazası gücləndirilmiş və bu sahənin inkişafı ilə bağlı proqram icra olunmaqdadır. Ölkə iqtisadiyyatının inkişafı proseslərində ortaya çıxan ciddi problemlərdən biri də qeyri-neft sənaye sahələrinin inkişafı məsələləridir. Hələ SSRİ dövründə Azərbaycan ixrac potensialına malik sənaye sahələri fəaliyyət göstərmişdir (metallurgiya, cihazqayırma, kimya və neftkimya, neftkimya maşınqayırması və s.). Bir sıra qeyri-neft sektoru sahələrinin struktur yenilənməsini həyata keçirmək və yeni təsərrüfat texnologiyaların tətbiqi olduqca vacibdir. Bu baxımdan son illərdə sahibkarlığın və biznes mühitinin inkişafına dövlət dəstəyi mexanizmlərinin daha məhsuldar və səmərəli müstəviyə qaldırılması tendensiyası sənaye sahələrinin yüksək texnologiyalar əsasında inkişaf etdirilməsi prioritetinin Azərbaycanda strateji hədəflərdən biri kimi qarşıya qoyulmasıdır. Azərbaycan iqtisadiyyatının müasir iqtisadi inkişaf meyillərindən biri də ölkədə İnformasiya-kommunikasiya texnologiyaları (İKT) sektorunun inkişafını təmin etməkdir. Artıq bu istiqamətdə ilk milli strategiyanın icrası 2012-ci ildə başa çatdırılmışdır. Ölkədə müasir İKT infrastrukturunun formalaşdırılması genişləndirilib, bu sahədə məhsulların çeşidi çoxalıb, xidmətlər diversifikasiyalaşdırılıb, innovasiya funksiyalarının tətbiqi intensivləşib və s. Hazırda bu iqtisadiyyat sektorunun neft-qaz sektorundan sonra əsas prioritet qeyri-neft sektoruna çevrilməsi üçün ciddi tədbirlər müəyyənləşdirilib və strateji vəzifələr qarşıya qoyulmuşdur**.**



Qeyri-neft sahəsində yüksək artım sürətinə nail olunması və bu sektor hesabına adambaşına ÜDM-in artırılması, ÜDM-in strukturunda qeyri-neft sektoru payının əhəmiyyətli dərəcədə yüksəldilməsi, adambaşına qeyri-neft ixracının artımının təmin edilməsi kimi hədəflər müəyyənləşdirilmişdir. Bu hədəflərə çatmaq üçün iki istiqamətdə - iqtisadiyyatın rəqabətqabiliyyətinin artırılmasıı və strukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər görülməsi həyata keçirilməlidir. Eyni zamanda, xarici ticarət və investisiya siyasətinin təkmilləşdirilməsi, enerji, nəqliyyat, tranzit və logistika infrastrukturunun inkişaf etdirilməsi, İKT və rabitə xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi də əsas prioritetlərdəndir. İqtisadiyyatın strukturunun təkmilləşdirilməsi isə neft-qaz sektoru və neft-kimya sənayesinin modernləşdirilməsi, qeyri-neft sənayesinin şaxələndirilməsi və inkişaf etdirilməsi, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə imkanlarının genişləndirilməsi yaxın onilliyin başlıca meyarlarından ibarətdir. Yaxın perspektivdə ölkəmizin rəqabətqabiliyyətinin artması və bu sahədə reytinqinin yüksəlməsi gözlənilir. Qloballaşma şəraitində Azərbaycan iqtisadiyyatının çoxşaxələnməsi və rəqabətqabiliyyətinin artırılması problemləri də müasir dövrün geniş diskusiyaya məruz qalan məsələlərindən biridir. Azərbaycanın gələcək inkişafında aşağıdakı iqtisadi amillərin vacibliyi xüsusi zərurətdən çıxış etməkdədir:

- qeyri-neft sektorunun genişlədirilməsi hesabına davamlı iqtisadi inkişafa nail olunması;
- iqtisadiyyatın inkişaf istiqamətlərinin şaxələndiriməsinin genişləndirilməsi;
- ÜDM-nin tərkibində dövlət büdcəsinin formalaşdırılmasında təbii ehtiyatlar amilinin azaldılması və qeyri-neft amilinin üstünlüyününü təmin edilməsi;
- iqtisadiyyatda innovasiyaların tətbiqinin təmin edilməsi üçün güclü inotivesiya mexanizmlərinin yaradılması və inkişaf etdirilməsi.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Qeyri-neft sahələrinin inkişaf istiqamətləri**

Qeyri-neft sektorunun sürətli inkişafının təminatından biri onun milli iqtisadiyyatın sərhədləri daxilində məhdudlaşmadığını və beynəlxalq inteqrasiya məkanına, dünya bazarlarına effektivli çıxa bilmək potensialını ortaya qoya bilməsidir. Bu halda sektorun çoxlu sayda sahələrinin ixrac potensialı reallaşma imkanı əldə edir, ölkənin dünya bazarlarına çıxardığı rəqabət qabiliyyyətli məhsulların, milli brendlərin siyahısı genişlənir, bütövlükdə milli iqtisadiyyatın diversifikasiyalaşdırılması mənbələrinin əhatəsi genişlənir. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının uzunömürlülüyü qlobal təmayüllərə adekvat olan məqsədyönlü sistemli iqtisadi islahatların aparılmasından, onun dünya təsərrüfat sisteminə inteqrasiyasının sürətləndirilməsinə xidmət edən səmərəli xarici iqtisadi əlaqələrin qurulmasından, xarici ölkələr və beynəlxalq iqtisadi təşkilatlarla ölkənin milli maraqlarına uyğun əlverişli ticarət-iqtisadi əlaqələrinin genişləndirilməsindən asılıdır. Respublikamız, 147-dən çox dövlətlər xarici-iqtisadi əlaqələrə malikdir. Bununla belə, bu əlaqələrin, xüsusilə ixrac əlaqələrinin əksəriyyəti neft ya qazla və yaxud neft məhsulları ilə bağlıdır. Buradan belə bir nəticəyə gəlmək mümkündür ki, ölkənin qeyri-neft sektorunun ixrac potensialının heç də az olmayan sahələri vardır və onların dərindən araşdırılması, obyektiv qiymətləndirilməsi, bunlara adekvat tədbirlərin müəyyənləşdirilməsi zəruriliyi ilə xeyli aktual görünür. Neft gəlirləri hesabına qeyri-neft sektorunun potensialının gücləndirilməsi, ixrac strukturunun genişləndirilməsi istiqamətində dövlət dəstəyi mexanizmləri fəaliyyət göstərir, dövlət siyasəti müasir iqtisadi proseslərə adekvat olaraq təkmilləşdirilir, regionların qeyri-neft potensialının reallaşdırılması üçün tarixi işlər həyata keçirilir.

Azərbaycanda istehsal edilən qeyri-neft sənayesi məhsullarının, o cümlədən elektrik maşınlarının və avadanlıqlarının, onların hissələrinin, kimya sənayesi məhsullarının, tikinti materiallarının, hazır toxuculuq məmulatlarının həcminin artması onların ixracına yeni imkanlar açır. Sənaye-istehsal sahələrinin şaxələndirilməsinə və qeyri-neft sektorunun inkişafına zəmin yaratmaq üçün ölkə prezidentinin imzaladığı sərəncamlar və təsdiq etdiyi inkişaf proqramlar kiçik və orta sahibkarlığın dəstəklənməsinə, bu fəaliyyətlə məşğul olanlara güzəştli dövlət kreditlərinin ayrılmasına, özəl sektora subsidiyaların yönəldilməsinə, ölkə boyu nəqliyyat-kommunikasiya infrastrukturunun yenidən qurulmasına müsbət təsir göstərməkdədir. Bu istiqamətdə yönəldilən kapital qoyluşları çox keçmədən öz bəhrəsini verməyə başlayıb və iqtisadiyyatın qeyri-neft sektorunda böyük canlanmaya səbəb olub. Sənaye müəssisələrinin müasir texnologiyalar əsasında yenidən qurulması, onların modernləşdirilməsi, yerli resurs və xammalla işləyən, ixracqabiliyyətli məhsullar istehsal edən sənaye komplekslərinin yaradılması, rəqabətədavamlı sənaye istehsalının genişləndirilməsi qeyri-neft sənayesinin əsas inkişaf prioritetlərindəndir. Qeyri-neft sənayesinin prioritet inkişafını, bu sahədə dayanıqlı artım tempini təmin etmək üçün aşağıdakı zəruri tədbirlərin həyata keçirilməsi vacibdir:

- ✓ sənaye sahəsində yuksək texnoloji və elm tutumlu istehsal sahələrinin inkişafına ustunluk verilməsi;
- ✓ muəssisələrin texniki-texnoloji cəhətdən yenidən qurulması, muasir idarəetmə metodlarının tətbiqi və marketinq xidmətlərinin təşkili;
- ✓ muqayisəli ustunluyə malik olan və rəqabətədavamlı sənaye məhsullarının istehsalının genişləndirilməsi;
- ✓ idxalı əvəz edəcək və ixrac yonumlu məhsulların istehsalının stimullaşdırılması;
- ✓ sənaye klasterlərinin yaradılması və sənayenin strukturunun secilmiş inkişaf istiqamətlərinə uyğun olaraq yenidən qurulması;
- ✓ investisiya - innovasiya proseslərinin stimullaşdırılması, enerji və resursa qənaət edən, ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqinin surətləndirilməsi;



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- ✓ investisiya mənbələrinin muəyyənləşdirilməsi və səmərəliliyinin artırılması;
- ✓ sənayenin inkişaf tempinin və əmək məhsuldarlığının yuksəldilməsinin prioritetliyinin təmin edilməsi;
- ✓ dunya sənaye əmtəələri bazarının cari və gələcək konyunkturası haqqında informasiyalara malik marketinq sisteminin yaradılması.

Ölkənin qeyri-neft sənayesinin inkişaf perioritetlərində rəqabətqabiliyyətli olan sahələrin fəaliyyətinin genişləndirilməsi, muqayisəli ustunluklər əsas götürülməklə qeyri-neft sənaye məhsullarının istehsalının stimullaşdırılması ilə bağlı dovlət dəstəyi sisteminin təkmilləşdirilməsi zəruridir. Bunun ucun: qeyri-neft sənayesində innovasiya fəallığının yuksəldilməsi məqsədilə qanunverici baza təkmilləşdirilməli və stimullaşdırıcı mexanizmlər yaradılmalı, qeyri-neft sənayesinin inkişaf etdirilməsi məqsədilə sənaye şəhərciyiklərinin, texnoparkların, xususi iqtisadi zonaların yaradılması işi surətləndirilməli, vergi və gomruk siyasəti təkmilləşdirilməli, ixracın dəstəklənməsi və daxili bazarın qorunması sistemi möhkəmləndirilməlidir. Elmi-texniki və konstruktor işlərinin genişləndirilməsi, patent fəaliyyətinin gucləndirilməsi sənaye muəssisələrin inkişafı ucun vacib amillərdəndir. Ölkədə qeyri-neft senayesinin inkişafı ilə əlaqədar həyata keçirilən dövlət proqramları və konkret tədbirlər iqtisadiyyatın diversifikasiyası və yeni sənaye sahələrinin inkişafı üçün geniş imkanlar açmalıdır. Bütün bu kimi müsbət meyllər əsas götürürülərək, Azərbaycan Respublikasında qeyri-neft sənayesinin inkişaf prioritetlərinə aşağıdakı aid edilməlidir:

- ✓ regionlarda rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən, müasir texnologiyalara əsaslanan müəssisələrin yaradılmasına şəraitin yaradılması, bu ərazilərdə istehsal olunan məhsulların artıq region və dünya bazarlarına ixracına stimul verərək, onların qeyri-neft sənayesində də istifadəsinin artırılması;
- ✓ qeyri-neft sənayesinin iqtisadi rayonlar üzrə inkişaf etdirilməsinin investisiya siyasətində prioritet kimi nəzərə alınması.
- ✓ ölkə iqtisadiyyatının, xüsusilə qeyri-neft sənayesinin inkişafına, iqtisadiyyatın modernləşməsinə, innovativ və elmtutumlu iqtisadiyyatın formalaşmasına, yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsinə nail olmaq üçün sənaye parklarının və komplehslərinin yaradılması;
- ✓ standartlaşdırma siyasəti cərcivəsində qeyri-neft sənaye sahələrində fəaliyyət gostərən muəssisələrdə beynəlxalq standartların tətbiqinin genişləndirilməsi;
- ✓ ölkə iqtisadiyyatı ucun böyuk əhəmiyyətə malik olan kimya sənayesinin yenidən qurulması, və onun inkişafına nail olunması, istehsal olunan məhsulun keyfiyyətinin yüksəldilməsi, onların emal dərinliyinin artırılması;
- ✓ maşınqayırma sənayesinin inkişafının surətləndirilməsi, istehsal olunan məhsulların xarici bazarlara cıxarılmasının və rəqabətədavamlılığının təmin edilməsi, xüsusilə neft-maşınqayırma sənayesinin inkişafının bərpa edilməsi;
- ✓ yungul sənayenin inkişafının muasir tələblərə uyğunlaşdırılması, daxili və xarici bazarlarda bu məhsulların rəqabətqabiliyyətinin yuksəldilməsi;
- ✓ yeyinti məhsullarının rəqabətədavamlılığının təmin edilməsi ucun qiymətli bioloji komponentlərlə zəngin yerli xammaldan istifadə etməklə, məhsulların mənimsənilməsi, bu məhsulların bioloji dəyərliliyin və dad keyfiyyətinin artırılması.

**Nəticə**

Azərbaycan Respublikasında iqtisadiyyatın və o cümlədən də qeyri-neft sektorunun inkişafının yeni və müasir dövrə uyğun prinsipləri müəyyən olunmalıdır. Qeyri-neft sektorunun inkişaf tədbir və islahatlarının həyata keçirilməsində, onun planlaşdırılmasında və proqnozlaşdırılmasında, investisiya və digər resursların cəlb olunub, səfərbər olunmasında vacib şərt dövlətin təkmil tənzimləmə mexanizminin formalaşması olmalıdır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

## Ədəbiyyat

1.“Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”. Bakı, 2016.
2.“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası”.Bakı, 2012.
3. Arif Şəkərəliyev, Qoşqar Şəkərəliyev. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı: “Turxan” NPB, 2016.
4.T.Yadigarov “Azərbaycan iqtisadiyyatında dəniz nəqliyyatı: problemlər və perspektivlər”. Avropa nəşriyyatı. Bakı, 2018

***З.А.Шакаралиева***

***Тенденции развития и диверсификация экономики Азербайджана***

***Резюме***

*В статье рассматриваются тенденции развития и диверсификации экономики Азербайджана. Исследуются меры, предпринимаемые в этой области в связи с развитием экономики в стране. Выдвигаются идеи по развитию экономики и ненефтяного сектора.*

***Ключевые слова:*** *экономика, диверсификация, ненефтяной сектор*

***Z.A.Shakaraliyeva***

***Development trends and diversification of Azerbaijan economy***

***Summary***

*The article discusses the development trends and diversification of the Azerbaijani economy. The measures taken in this area related to the development of the economy in the country are being studied. Opinions on the development of the economy and the non-oil sector are put forward.*

***Keywords:*** *economy, diversification, non-oil sector*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 01.10.2019.***
***Çapa qəbul olunub: 04.10.2019.***



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az